Ədəbiyyat qəzeti

27 aprel 2024-cü il 37

# *Nizami ƏLİOĞLU-75*



Hörmətli Nizami Əlioğlu!

Sizi - istedadlı yazıçı-publisisti 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz keçmiş Dəvəçi (indiki Şabran) şəhərində dəmiryolçu ailəsində anadan olmuş, uzun müddət dəmiryolu nəqliyyatında rəhbər vəzifələrdə çalışmısınız.

Erkən yaşlarınızdan ədəbiyyata müxtəlif mətbuat orqanlarında dərc olunan şeirlərinizlə gəlsəniz də, sonralar nəsr əsərləri yazmağa başlamısınız. Povest və hekayələriniz "Azərbaycan", "Literaturnıy Azerbaycan", "Ulduz" jurnallarında, "Ədəbiyyat qəzeti" və "Mir literaturı" qəzetlərində dərc olunmuşdur.

Ədəbi tərcümə sahəsində də qələminizi sınamaqla Aqata Kristi, Teylor Lyusi, Mehmət Babacan, Abdurrahman Rasuli və digər yazıçıların hekayələrini dilimizə çevirmisiniz.

Tanınmış incəsənət adamları - xanəndə Alim Qasımov, muğam ifaçısı, şair Ağakərim Nafiz, rəqqasə Roza Cəlilova, aktyor Əjdər Həmidov, qarmon ifaçısı Zakir Mirzəyev və başqaları haqda yazıb "Qobustan" dərgisində və digər mətbuat orqanlarında dərc etdirdiyiniz publisistik yazılar da oxucular tərəfindən maraqla qarşılanıb.

İndiyə kimi "Səksənim, doxsanım, yüzüm var hələ" (2000), "İlanlı ev" (2002), "Ömrə qovuşan yollar" (2004), "Ömür dastanı" (2005), "Sarı maşının yolu" (2019) kitablarının müəllifisiniz. Prezident təqaüdçüsü olmusunuz.

Hazırda şəhid oğlunuz Həzi Cavadovun xatirəsinə həsr etdiyiniz "Ölümün rəngi qara deyilmiş" romanınız çapa hazırlanır.

Hörmətli Nizami müəllim!

Sizi bir daha 75 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**